

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 228 (23.139)

29 noyabr 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Dövlət qulluğunun yeni inkişaf istiqamətləri müəyyənləşdirilib

*Ölkəmizdə müasir dövlət qulluğu sisteminin, həmçinin dövlət idarəçiliyinin yeni əsaslarının formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimizin təşəbbüsü ilə ilk milli Konstitusiyanın hazırlanması, dövlət idarəetmə sistemində islahatların aparılması üzrə dövlət komissiyasının yaradılması, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun və bu qanun əsasında bir sıra qanunvericilik aktlarının qəbul edilməsi dövlət quruculuğunun inkişaf etdirilməsi, dövlət idarəetmə və dövlət qulluğu sisteminin təkmilləşdirilməsi və demokratikləşdirilməsi sahəsində mühüm əhəmiyyət kəsb edən addımlardandır.*



Ümummilli liderimizin əsasını qoyduğu dövlət qulluğu siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ölkə başçısının rəhbərliyi ilə bu sahədə mühüm qanunvericilik aktları təsdiq olunmuş, dövlət qulluğu sahəsində mütərəqqi normativ-hüquqi baza formalaşdırılmış, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları vaxtında aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizmi yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasında da dövlət qulluğu sahəsində uğurlu islahatlar aparılmışdır. Son illər muxtar respublikada müasir tələblərə cavab verən dövlət qulluğu sistemi formalaşdırılmış, "Elektron hökumət" portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilmiş, bəzi dövlət orqanları üzrə səyyar xidmətlər təşkil olunmuşdur. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binaların tikilməsi və maddi-texniki bazanın gücləndirilməsi, dövlət qulluqçularının fəaliyyətlərinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması, fəaliyyətlərində fərqlənən dövlət qulluqçularının təltif edilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dövlət qulluğu sahəsinə hərtərəfli diqqət və qayğısının bariz nümunəsidir.

Ölkəmizin hərtərəfli inkişafı dövlət qulluğunda daha genişmiqyaslı və strukturlu islahatlar yolu ilə dövlət orqanlarının effektivliyinin artırılmasını və dövlət qulluğu sisteminin müəyyən sahələrinin təkmilləşdirilməsini nəzərdə tutan yeni sənədin – dövlət qulluğunun inkişafına dair strategiyanın hazırlanmasını zəruri etmişdir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" təsdiq edilmişdir.

Dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması Strategiyanın əsas məqsədi kimi müəyyən edilmişdir. Bu sənəddə dövlət qulluğu sistemində əsaslı islahatlar aparılması nəzərdə tutulur.

Strategiyada dövlət qulluğu sahəsində mövcud vəziyyətin SWOT analizi aparılmış, güclü və zəif cəhətlər, dövlət qulluğu sisteminin inkişaf etdirilməsi ilə bağlı imkanlar müəyyənləşdirilmişdir. Strategiyada dövlət qulluğu sisteminin təkmilləşdirilməsi üçün aşağıdakı inkişaf istiqamətləri müəyyən edilmişdir:

*- institusional islahatların həyata keçirilməsi;*
*- kadr siyasətinin təkmilləşdirilməsi;*
*- rotasiya sisteminin təkmilləşdirilməsi;*
*- dövlət qulluğuna qəbulda səriştə (kompetensiya) modelinin tətbiqi;*
*- dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi;*
*- dövlət qulluğunun informasiya təminatı və elektron dövlət qulluğunun inkişaf etdirilməsi;*
*- dövlət qulluğunda mütərəqqi motivasiya (həvəsləndirmə) sisteminin yaradılması;*
*- dövlət qulluğunda qanunvericiliyin təkmilləşdirilməsi və icrasına nəzarət;*
*- dövlət orqanlarının struktur bölmələrinin və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi;*
*- dövlət qulluqçularının etik davranış qaydalarının tətbiqinin təkmilləşdirilməsi.*

Strategiyada dövlət qulluğunun qeyri-dövlət sektoru ilə rəqabət qabiliyyətinin artırılması, habelə dövlət qulluğu sisteminin sadələşdirilməsi və şəffaflığının təmin edilməsi məqsədilə vəzifə modelinə əsaslanan dövlət qulluğu sisteminin inkişafına təkan verən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Dövlət qulluğunda institusional islahatların aparılması məqsədilə dövlət qulluğu və onun xüsusi növləri, dövlət orqanlarının kateqoriya və iyerarxiyası, struktur bölmələrinin növləri və yaradılması qaydası, dövlət qulluğu vəzifələrinin növləri, təsnifatları, vəzifə adları ilə bağlı bir sıra anlayışlar təhlil ediləcək, mütərəqqi sistemin qurulması üçün kompleks təkliflər hazırlanacaqdır. Dövlət orqanlarının kadr qurumlarının fəaliyyətini təkmilləşdirmək məqsədilə onların fəaliyyətini tənzimləyən nümunəvi sənəd – "Dövlət orqanlarının kadr qurumları haqqında Nümunəvi Əsasnamə" təsdiq olunacaqdır.

Dövlət qulluqçularının peşəkarlığını və işinin səmərəliliyini artırmaq məqsədilə dövlət qulluğunda beynəlxalq təcrübəyə əsaslanan səriştə (kompetensiya) modeli tətbiq ediləcəkdir. Səriştə modelinin tətbiqi dövlət qulluğu vəzifələrinin onların fəaliyyət sahələri üzrə qruplaşdırılması və qruplar daxilində vəzifə profillərinin yaradılması ilə müşayiət olunacaqdır.

Dövlət qulluğunun iş yeri kimi cəlbediciliyinin artırılması məqsədilə dövlət qulluqçularının əməyinin ödənilməsi sistemi təkmilləşdiriləcək, əməkhaqqı sistemi dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələrindən asılı olaraq pilləli şəkildə dövlət məvacibinin artırılması imkanlarını nəzərdə tutacaqdır. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinin əhəmiyyətini artırmaq məqsədilə qiymətləndirmə nəticələrinin əməkhaqqı, qulluqda yüksəliş, rotasiya, əlavə təhsil və dövlət qulluğunun digər elementləri ilə əlaqələndirilməsi həyata keçiriləcəkdir.

Bundan başqa, dövlət qulluğunda rotasiyanın tətbiqi, dövlət qulluqçularının əlavə təhsilinin təşkili, dövlət qulluğu sahəsində vahid qanunvericilik aktının – Azərbaycan Respublikası Dövlət Qulluğu Məcəlləsinin qəbul edilməsi də nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Əhalinin siyahıya alınması üzrə hazırlıq işləri davam etdirilir

*Muxtar respublikanın uzunmüddətli inkişaf strategiyasına uyğun olaraq demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi demoqrafik prosesləri sürətləndirərək əhali artımını təmin etməkdir. Demoqrafiya siyasəti dövlətin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olub, onun əsasını təşkil edir.*

əhalinin siyahıya alınması üzrə hazırlıq işlərinin görülməsi, onun keçirilməsi, bu sahədə müvafiq nazirlik, komitə, idarə və təşkilatların, şəhər və rayon icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək məqsədilə 2016-cı il 26 dekabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən

Bu istiqamətdə həyata keçirilən tədbirlərin effektivliyinin öyrənilməsi məqsədilə əhalinin siyahıya alınması keçirilməkdədir. Siyahıyaalma hər hansı bir ərazidə yaşayan əhali haqqında demoqrafik, iqtisadi və sosial məzmunlu məlumatların vaxtaşırı toplanması, ümumiləşdirilməsi və təhlili prosesidir. Siyahıyaalma vahid prinsiplər və proqram əsasında bütün ərazidə, eyni zamanda adbaad, mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Sorğu yolu ilə əldə olunmuş məlumatların ümumiləşdirilmiş yekunlarından iqtisadi təhlillərdə, sosioloji tədqiqatlarda geniş istifadə edilir.

Azərbaycan Respublikasında əhalinin siyahıya alınması Birləşmiş Millətlər Təşkilatının tövsiyələrinə uyğun olaraq hər 10 ildən bir keçirilir. Ölkəmizdə əhalinin birinci milli siyahıya alınması 1999-cu, ikincisi isə 2009-cu ildə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında 1999-cu ildə keçirilmiş siyahıyaalmada əhalinin sayı 354 min 72 nəfər, 2009-cu ildə isə bu göstərici 398 min 323 nəfər olmuşdur. 2009-cu ildə keçirilmiş siyahıyaalmada əhalinin 198 min 267 nəfərini və ya 49,8 faizini kişilər, 200 min 56 nəfərini və ya 50,2 faizini qadınlar təşkil etmişdir. Əhalinin 115 min 488 nəfəri və ya 29 faizi şəhər yerlərində, 282 min 835 nəfəri və ya 71 faizi kənd yerlərində məskunlaşmışdır.

Son illər əhali artımında müsbət miqrasiya ilə yanaşı, yeni doğulanların sayı əsas rol oynamış, muxtar respublika əhalisinin sayı 1 noyabr 2018-ci il tarixə 455 min 592 nəfər olmuşdur. Müqayisə üçün qeyd edək ki, birinci və ikinci siyahıyaalma dövrlərində əhalinin sayı 44 min nəfər artdığı halda, son 9 ilə yaxın – yəni 2010-cu ildən cari ilin noyabr ayının əvvəlinə olan dövrdə əhalinin sayı 53 min nəfər artmışdır. Heç şübhəsiz ki, əhali artımı muxtar respublikada əldə olunmuş sosial-iqtisadi inkişafın uğurlu nəticəsidir.

Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanı ilə növbəti siyahıyaalma 2019-cu il oktyabr ayının 1-dən 10-dək keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasında "Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıya alınmasına yardım komissiyasının yaradılması haqqında" Sərəncam imzalanmışdır. Müvafiq sərəncamın icrası istiqamətində 2017-ci ildə muxtar respublikamızda əhalinin siyahıya alınmasına yardım komissiyasının iş planı təsdiq edilmişdir. Həmin planda yerinə yetiriləcək işlər müəyyənləşdirilmiş, şəhər və rayon icra hakimiyyətlərində əhalinin siyahıya alınmasına yardım komissiyaları yaradılmış, icraya məsul orqanlara konkret tapşırıqlar verilmişdir.

Mühüm dövlət tədbirinin əsas icraçısı kimi əhalinin siyahıya alınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Dövlət Statistika Komitəsinə həvalə olunmuşdur.

Təsdiq olunmuş iş planına əsasən cari ilin ötən dövründə muxtar respublikanın şəhər və rayonlarının yaşayış məntəqələri üzrə sxematik plan və xəritələri hazırlanmış, evlərin, mənzillərin sayı və digər göstəricilər haqqında məlumatlar dəqiqləşdirilmişdir.

Əldə olunmuş məlumatlar əsasında muxtar respublikanın hər bir inzibati ərazi vahidi üzrə təşkilati planlar hazırlanmışdır. Təşkilati plana əsasən şəhər və qəsəbələr üzrə siyahıyaalma məntəqələrinin, şəhər və qəsəbələr üzrə təlimatçı və sayıcı məntəqələrinin, kənd yerlərində siyahıyaalma məntəqəsinin təlimatçı və sayıcı məntəqələri üzrə tərkibləri müəyyənləşdirilmiş, şəhər, qəsəbə və kənd yerlərində siyahıyaalmanın rayonlaşdırılması başa çatdırılmışdır.

Mehmanxana və istirahət mərkəzlərinin, xəstəxanaların, sosial xidmət müəssisələrinin, yataqxanaların və digər müvəqqəti yaşayış yerinin nəzərdə tutulan obyektlərin və əhalinin müvəqqəti toplaşdığı obyektlərin – yəni hava limanının, dəmir yolu və avtobus vağzallarının sayı və başqa göstəriciləri hər bir inzibati ərazi vahidi üzrə müəyyənləşdirilmişdir.

Əhalinin siyahıya alınması üzrə həyata keçirilən hazırlıq işləri bu mühüm tədbirin muxtar respublikada vaxtında, dolğun və mütəşəkkil keçirilməsinə imkan yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət olunur

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, o cümlədən qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər ötən ay ərzində də davam etdirilmişdir.

Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 14 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülmüşdür. Ümumilikdə, ötən dövrdə Dövlət Miqrasiya Xidmətinə daxil olan 967 müraciətin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılmış və müvafiq qərarlar qəbul edilmiş, olduğu yer üzrə qeydiyyata bağlı 644 müraciət qeydə alınaraq icrası təmin edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri də həyata keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Sahibkarların əməkdaşlıq imkanları genişlənir

20-24 noyabr tarixlərdə Türkiyə Respublikasının İstanbul şəhərində XVII MÜSİAD EXPO Beynəlxalq sərgisi keçirilmişdir. Sərgidə 33 ölkədən 7 mindən çox iş adamı, o cümlədən muxtar respublikada fəaliyyət göstərən "Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqının və "Az-Elektrod" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndələri iştirak ediblər.

Sərgi çərçivəsində yerli sahibkarlıq subyektlərinin nümayəndələri sərgi ilə tanış olub, keçirilmiş konfransda iştirak ediblər. Brendlərin reklamı və yeni tərəfdaşlıq imkanlarının artırılması məqsədilə qarşı tərəfə muxtar respublikada istehsal olunan məhsullar haqqında geniş məlumatlar verilib.

İkili görüşlər zamanı "Dizayn Holdinq" Kommersiya Şirkətlər İttifaqının nümayəndəsi Türkiyə Respublikasının "Tatmetal" şirkətinin nümayəndəsi ilə, "Az-Elektrod" MMC-nin nümayəndəsi isə Türkiyənin Göktekin Enerji, Ücsa ambalaj, Aktaş, Maknart, Kocabey makine, FM Panel, Yeşilova şirkətlərinin nümayəndələri ilə potensial əməkdaşlıq əlaqələrinin yaradılmasına dair görüşlər keçiriblər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

İslam Mədəniyyətinin Paytaxtı – Naxçıvan

# Bir qalanın sirri

*Cəmiyyətin tarixi inkişafı boyunca mövcud olmuş sivilizasiyalar arasındakı dialoq dərinləşdikcə keçmişlə bu günü bir-birinə bağlayan bəşəri nailiyyətlərin daha dərindən tədqiq və təbliğ olunması insanları yüksək mənəvi dəyərlərə çağıran İslam mədəniyyəti gerçəkliklərinə daha sıx bağlanmaq zərurəti yaradır. Bir tərəfdə yüksək texnoloji imkanlar hesabına bütün dünyaya hökm etmək istəyən qlobal güclərin amansız mübarizəsi, digər bir tərəfdə isə bu cəmiyyətlərdə sürətlə aşınmaya doğru gedən mənəvi dəyərlər, qütbləşmə və ədalətsizlik mənzərəsi qarşısında məhz islami dəyərlər min illər boyu qazanılan mənəvi sərvətlərin qorunaraq gələcək nəsillərə çatdırılmasının ən yaxşı yolu kimi bütün dünyanın diqqət mərkəzindədir.*

2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olan Naxçıvan əsrlərboyu bu dəyərləri özündə hifz edib saxlamış alınmaz bir qala kimi yüz illərin arxasından bizə və gələcək nəsillərə çox böyük miras qoymaqdadır. Həmin mirasa sahib çıxıb, onu yaşadıb ümumbəşəri sərvətə çevirməyin yolu isə bu alınmaz qalanın sirlərinə heyran qalanları dərindən düşündürməkdədir. Bəs nədir bu sirlər?

Elm hər bir cəmiyyətin inkişafının əsas dayağıdır. Elmsiz cəmiyyət qaranlığa bürünmüş otaq kimidir. Bu qaranlığın aydınlaşması üçün maarifpərvər insanların elm, təhsil yolundakı fədakarlığı yüz illər keçsə belə, heç zaman unudulmur, zehinlərə işıq tutan mayak kimi gələcəyə bərq vurur. Bu mənada, xüsusən erkən orta əsrlərdən başlayaraq dünya elminə mühüm töhfələr vermiş müsəlman elm və sənət adamlarının etdiyi kəşflər, yaratdıqları nadir memarlıq inciləri bu gün də insanları dərindən düşündürməkdədir. Bu dövrdə yaşamış naxçıvanlı elm adamlarının, memar və sənətkarların, təbib və filosofların əsərləri isə türk-islam mədəniyyətinin inciləri kimi araşdırıcıların və həvəskar turistlərin diqqətini cəlb edir.

Qədim tariximizin öyrənilməsi, tarixboyu qurulanların qorunub saxlanılması, onların dünya irsinə qazandırılması məqsədilə müasir Naxçıvanda həyata keçirilən hər bir tədbir isə keçmişimizin unudulmaması, dəyərlərimizə yenidən qayıdılması işində dünyaya örnək olacaq səviyyədədir. Öz keçmişinə hörmət, ona qayıdış isə İslam mədəniyyətinin qaynağı olan müqəddəs "Qurani-Kərim"də də buyurulub: *"Öz keçmişinə qayıdan şəxs Allaha heç bir ziyan vurmaz" ("Ali-İmran"surəsi , 144-cü ayə).*



Əsrlər öncə qədim Naxçıvanda formalaşmış elmə və təhsilə maraq tarixin sınaqlarından bu günümüzə qədər gəlib çatmış ən qiymətli dəyərlərimizdəndir. Ötən əsrin sonlarındakı blokada illərində naxçıvanlıların bütün çətinliklərə baxmayaraq, təhsildən bir gün belə, aralı düşmədən yoluna davam etmələri bu gün öz bəhrəsini verməkdədir. Müasir dövrdə tamamilə yenilənmiş təhsil infrastrukturundan və maddi-texniki bazadan bəhrələnərək yeni cəmiyyət quruculuğuna öz töhfəsini verən indiki naxçıvanlı elm və təhsil adamları XX əsrin 90-cı illərini yaxşı xatırlayırlar...

Bu gün təhsilimizdə, xüsusən Naxçıvanda gənclərin sağlam ruh, aydın düşüncə və müasir texnologiyanı mənimsəmə amalı ilə yetişdirilməsi istiqamətində həyata keçirilən yeniliklərin hər biri məhz gələcəyimizin elmə dayanıqlı olmasına xidmət edir. Əsl elm isə hər şeyin insan üçün yaradıldığı dünyanın bitməz-tükənməz sirlərinin öyrənilməsi və bununla da insanın yaxşı yaşaması üçün şərt olan inkişafın əsasında dayanır. Odur ki, elmin sirlərinə vaqif olmaqla İslam mədəniyyətinə də sahib olmağın yolu indi gün kimi hər kəsə aydındır. Hər kəlməsinin bir mənası "oxumaq" olan müqəddəs kitabımızda buyurulduğu kimi: *"Bir gör göylərdə və yerdə nələr var" ("Yunus" surəsi, 101-ci ayə).*

Kamil elm sahibi olmaq dövlətə xidmətin ən yaxşı yoludur. Dövlət insanların tarixboyu qurub-yaratdığı ali idarəetmə institutu kimi öz varlığını həmişə göstərib. Belə ki, şüurlu, məqsədyönlü idarəetmə olmadan cəmiyyətdə İslam dininin də insanın normal yaşayışı üçün əsas saydığı hüquq, azadlıq və ədalət də ola bilməz. Müasir cəmiyyətin də əsas inkişaf imperativlərindən biri insanların təməl hüquq və azadlıqlarının təmin olunmasıdır. Hər kəsin başqalarının hüquqlarını pozmamaq şərtilə öz iradəsini ifadə edə bilməsi və inanclarına görə yaşaması hələ 1400 il öncə müqəddəs "Qurani-Kərim"də də göstərilib. Bu, dünyaya demokratiya ixrac etmək istəyənlərə ən tutarlı cavabdır. Odur ki, İslamı bir din olmaqla yanaşı, cəmiyyətin inanclara söykənən ən ədalətli, ən humanist idarəetmə qayda-qanunları da hesab edirlər. Bu mənada, İslam mədəniyyəti ənənələrinin möhkəm şəkildə qorunub saxlanıldığı Naxçıvan qədim dövlətçilik tarixi ilə də dünyada öyünəbiləcək səviyyədədir.

Elm və mədəniyyətin bütün dünyada aparıcı güc olduğu XII əsrdə yaranmış Azərbaycan Atabəylər dövlətində qadının cəmiyyətdə oynadığı rolu, onun şərəfinə Naxçıvan şəhərində inşa olunmuş və bu günədək gəlib çatmış Möminə xatın türbəsini misal göstərmək kifayətdir. Sonrakı dövrlərdə cəmiyyətdə fərdi, ailəvi, ictimai, iqtisadi və siyasi münasibətlər vektorunu da müəyyənləşdirən İslam, sadəcə, iman və ibadətdən ibarət olmadığını sübut edərək insanların mənəvi və maddi dünyaları arasındakı münasibətləri dolğunlaşdıran bir din kimi bu bölgədə yaşayan insanların qanına hopdu. Görülən hər bir işin məsləhətləşmə ilə daha yaxşı nəticə verəcəyini hökm edən müqəddəs kitabımızın "Şura" surəsinin 38-ci ayəsində buyurulduğu kimi: *"O kəslər ki, Rəbbinin dəvətini qəbul edir, namaz qılır, işləri barədə öz aralarında məsləhətləşir, onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər".*

Dövlət öz vətəndaşlarının ən çətin zamanlarında yanında olaraq onları hər cür təbii və insani fəlakətlərdən qorumaq vəzifəsi daşıyır. Naxçıvanda heç bir çətinlikdən sarsılmayan xalq-dövlət birliyinin yaşadılması tarixi gerçəklikdir. Ölkəmizin dövlət müstəqilliyinin yenidən qazanılması ilə qədim diyarımızda istər idarəçilik, istər sosial-humanitar sahələrdə, istərsə də insanların yaxşı yaşaması üçün görülən hər bir işdə insani hədəflərin əsas götürülməsi bugünkü narahat dünya fonunda həmişə diqqətdə saxlanılıb. Şübhəsiz ki, bu da İslam Mədəniyyəti Paytaxtı statusu alan Naxçıvanımızın xalqımızın dövlətçilik tarixində qazandığı bütün uğurlu təcrübəni mənimsəyərək tətbiqi ilə də bağlıdır.

Geostrateji maraqların ciddi şəkildə kəsişdiyi qoca Şərqin qapısındakı bu qədim Azərbaycan diyarının sakinləri torpağa, Vətənə sevgisi, dövlətə sədaqəti ilə başqalarına nümunə oldular. İndi dünyada Naxçıvan adı eşidiləndə hər kəsin gözü qarşısında İslamdan da qabaq, qədim Əshabi-Kəhf hadisəsi dövründən təkallahlıq inanclarına, yüksək humanitar keyfiyyətlərə və dövlətçilik məharətinə sahib olan insanların yaşadığı yer başa düşülür. Allahın insana bəxş etdiyi ağıl və zəkanı yalnız qurub-yaratmaq, gələcək nəsillərin xoşbəxtliyi uğrunda çalışan insanların yaşadığı bir məmləkət üçün bundan gözəl qiymət ola bilməz. Çünki bu yol haqq, hidayət yoludur. Hidayət və ağıl isə bir-birindən ayrılmayan iki həqiqətdir. Ağıl sahibləri üçün doğru yol göstərən "Qurani-Kərim"də deyildiyi kimi: *"O kəslər ki, sözü (öyüd-nəsihəti) dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır!" ("Zumər" surəsi, 18-ci ayə).*



*(Ardı var)*

**Əli CABBAROV**

# Özəl sektorun inkişafı sosial rifah halının yüksəldilməsinə xidmət edir

*Sahibkarlara güzəştli kreditlərin verilməsi özəl bölmənin maliyyə resursları ilə təmin olunması istiqamətində əsas mexanizmlərdəndir. Son illər ərzində 1269 layihəyə 142 milyon manatdan çox güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində yüzlərlə yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 18,7 faizi aqrar sektorun, 60,8 faizi sənayenin və 20,5 faizi xidmət sektorunun inkişafına yönəldilib.*

Sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, özəl sektorda innovativ texnologiyalara əsaslanan yeni istehsal və emal müəssisələrinin, infrastruktur sahələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 7 avqust tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb. Güzəştli kreditlərdən daha səmərəli istifadə məqsədilə Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 6 faizdən 5 faizə endirilib, nəzarət mexanizmi təkmilləşdirilib. Yeni qaydaların tətbiqi sahibkarların güzəştli maliyyə resurslarına çıxışına, eləcə də özəl sektorda məhsul istehsalının və ixracının genişlənməsinə, istehsal xərclərinin azalmasına, məhsulun maya dəyərinin aşağı düşməsinə, yeni istehsal sahələrinin yaradılmasına, özəl bölmənin dövlət dəstək mexanizmlərindən daha geniş istifadəsinə imkan yaradacaq.





Özəl bölmənin inkişafında əhəmiyyətli mexanizmlərdən olan "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti vasitəsilə 2005-ci ildən kənd təsərrüfatı texnikası lizinqə verilir, pestisidlər, texnoloji avadanlıqlar, tinglər, toxumlar, damazlıq cins heyvanlar güzəştli şərtlərlə istehsalçılara çatdırılır, aqrotexniki xidmətlər göstərilir.

Bundan başqa, Almaniya-Azərbaycan Birgə Proqramı çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkar və menecerlər Almaniyanın tədris mərkəzlərində ödənişsiz ixtisasartırma kursu keçir, beynəlxalq təcrübəyə yiyələnir, işgüzar əlaqələr qururlar. İndiyədək muxtar respublikada fəaliyyət göstərən 50-dən çox sahibkar və menecer bu proqramdan yararlanaraq ixtisasartırma kursu keçib.

Dövlət başçısının yeni qlobal çağırışların nəzərə alındığı iqtisadi islahatlar paketinə uyğun olaraq sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci ilədək dayandırılıb. Sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə apellyasiya şuraları yaradılıb, ixracın və investisiyaların təşviqi mexanizmləri formalaşdırılıb, dövlət satınalmalarında yerli mallar üçün güzəştlər müəyyən olunub, gömrük prosedurları sadələşdirilib, tələb olunan sənədlərin sayı azaldılıb və konkretləşdirilib, idxal-ixrac əməliyyatları sahəsində mütərəqqi mexanizmlər tətbiq edilib.

Ötən dövr ərzində lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən "Lisenziyalar və icazələr haqqında" Qanun qəbul edilib. Həmin qanuna əsasən lisenziya tələb edilən fəaliyyət növlərinin sayı 40-dan 22-yə endirilib, lisenziyanın verilməsi üçün zəruri olan prosedurlar sadələşdirilib. Yeni lisenziyalaşdırma sisteminin tətbiqi azad rəqabətin inkişafını, istehsal olunan məhsulun, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi prosesini daha da sürətləndirib.

2016-cı ildən etibarən investisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədləri verilir. İndiyədək sahibkarlıq subyektləri tərəfindən icra edilən 5 layihəyə investisiya təşviqi sənədi təqdim edilib. İnvestisiya təşviqi mexanizminin tətbiqindən sonra icra edilən layihələr üzrə investisiya qoyuluşunun həcmi 11 milyon manatdan çoxdur. Bu layihələrin icrası nəticəsində 106 iş yeri yaradılıb.

Yeri gəlmişkən, investisiya təşviqi sənədi Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda müəyyən edilən güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu güzəştlərə 7 il müddətinə mənfəət və ya gəlir vergisinin 50 faizindən, əmlak vergisindən 100 faiz, layihə çərçivəsində texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə gömrük rüsumlarından və əlavə dəyər vergisindən tam azadolma aiddir. Eyni zamanda investisiya təşviqi sənədi əsasında texnikanın, texnoloji avadanlıq və qurğuların güzəştli şərtlərlə idxalı üçün 5 layihəyə 6 təsdiqedici sənəd təqdim olunub. Həmin sənədlər əsasında muxtar respublikaya idxal olunmuş ümumi dəyəri 10 milyon manatdan çox istehsal təyinatlı avadanlıq və qurğular vergilərdən azad edilib.

Muxtar respublikada yaradılmış əlverişli biznes və investisiya mühiti beynəlxalq təşkilatların hesabatlarında da müsbət qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club"un ölkəmizin iqtisadi regionları üzrə 2017-ci ildə elan etdiyi illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək bal toplayaraq birinci yerə çıxması bunu bir daha təsdiqləyir.

*Göründüyü kimi, milli sahibkarlığın hərtərəfli dəstəklənməsi ilə bağlı atılan addımlar özəl sektorun inkişafına, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, fərdi məşğulluğun təmin edilməsinə, rəqabətqabiliyyətli məhsul ixracının gücləndirilməsinə, bütövlükdə, iqtisadiyyatın davamlı inkişafına bundan sonra da böyük töhfələr verəcək.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## Naxçıvan folklorunun özünəməxsus cəhətlərini tədqiq etmək baxımından qiymətli mənbə

*Bədii söz sənətimizin misilsiz inciləri olan mənəvi sərvətlər içərisində şifahi xalq ədəbiyyatımız – folklorumuz özünəməxsus yerə və qədim tarixi köklərə malikdir. Etnoqrafik materialları və folklor nümunələri ilə zəngin olan Naxçıvanda folklor örnəklərinin toplanması işi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra sistemli şəkil alıb. Müxtəlif dövrlərdə yaradılmış xalq ədəbiyyatı nümunələrinin toplanılaraq nəşr olunması işinə dövlət səviyyəsində diqqət yetirilməsi xalqımızın tarixi sayılan folklor nümunələrinə əbədi həyat verilməsi deməkdir.*




Muxtar respublikamızda folklor örnəklərinin araşdırılması, öyrənilib gələcək nəsillərə çatdırılmasında mühüm əhəmiyyət daşıyan işlərdən biri də bu faktların və folklor örnəklərinin kitab şəklində nəşr olunmasıdır. Elə Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun əməkdaşları tərəfindən muxtar respublikamızın Şərur bölgəsindən toplanılıb işıq üzü görən "Şərur folklor örnəkləri" kitabının əhəmiyyəti nəzərə alınaraq təkrar nəşr edilməsi də bu mühüm məramа xidmət edir.

Kitab AMEA Folklor İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü Muxtar Kazımoğlu, həmin institutun Folklor və yazılı ədəbiyyat şöbəsinin əməkdaşları – filologiya üzrə fəlsəfə doktoru, dosent Fidan Qasımova və Gülnurə Canməmmədovanın, həmçinin Fəridə Kərimovanın topladıqları folklor materialları əsasında hazırlanıb. Kitabın redaktoru filologiya üzrə elmlər doktoru, professor Akif İmanlıdır.

"Şərur folklor örnəkləri" kitabında Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda yaşayan əhalinin müxtəlif dövrlərdə yaratdığı, əsrdən-əsrə, nəsildən-nəslə keçərək zamanəmizə qədər gəlib çıxan şifahi xalq ədəbiyyatı nümunələri öz əksini tapıb. Folklor nümunələrinin toplayıcıları Şərur şəhəri və rayonun 15-dən çox kəndində olublar. Buranın sinəsi dolu nənə və babalarından dünyanın yaranması, sonu, tayfa və nəsil adları, ziyarətgahlar və sair haqqında geniş məlumat, müxtəlif mövzulu mif, əfsanə, rəvayət, nağıl, lətifə, atalar sözləri, bayatı, gülümey, haxışta, layla, nazlama nümunələri toplayıblar. Bu nümunələr xalqımızın dünyagörüşünü, mədəniyyətini, adət-ənənələrini və milli mentalitetini özündə ehtiva edir.

Günümüzə qədər gəlib çıxmış bir çox ağız ədəbiyyatı nümunələri qədim dövrdən başlayaraq zaman-zaman xalqımızın həyat və məişət tərzini, mübarizəsini, yaşadığı və yaratdığı tarixini göz önündə canlandırır. Bu mənada, dastan, nağıl, lətifə, inanc və etnoqrafik nümunələr ilə zəngin olan kitabda yer alan folklor materiallarının insanların həyata baxışını öyrənmək işində elmi-tarixi əhəmiyyəti var. Folklor nümunələri ideya-məfkurəvi, əxlaqi, bədii və tərbiyəvi dəyərləri ilə yanaşı, insanın estetik zövqünün yüksəlməsinə təsir edən misilsiz ədəbi xəzinədir.

Kitabda qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasında folklor nümunələri və etnoqrafik materialların toplanması üçün əlverişli şərait vardır. Bu şəraitin yaranmasında dövlət əhəmiyyətli tədbirlər və qəbul edilmiş rəsmi sənədlər mühüm rol oynayır. Xüsusi dövlət qayğısı şəraitində toplanan Şərur örnəkləri Naxçıvan folkloru ilə bağlı təsəvvürümüzü daha da dolğunlaşdırır və bir sıra qaranlıq məqamlara müəyyən qədər işıq salır. Onlardan biri də Novruz çərşənbələri ilə bağlıdır.

Bildiyimiz kimi, son vaxtlara qədər az qala yekdil olaraq ilin son çərşənbələrini bu ardıcıllıqla bayram edirdik: su, od, yel, torpaq çərşənbələri. Bu "yekdillik" xalqın özündənmi, yoxsa folklorşünaslardanmı gəlir? Həmin məsələyə aydınlıq gətirilən nəşrdə vurğulanır ki, xalqın özündə hər hansı folklor faktına yekdil münasibət mümkün deyil. O mənada ki, çoxvariantlılıq folklorun təməl xüsusiyyətlərindəndir. Yalnız bir variantda təqdim olunan, başqa variantlarına təsadüf edilməyən mətnin folklor nümunəsi olması şübhə doğurur. Novruz bayramına da "böyük bir mətn" kimi baxsaq, unutmamalıyıq ki, onun müxtəlif bölgələrdə qismən fərqli məzmunda ortaya çıxması tamamilə təbiidir. Fərqlər isə çərşənbələrə verilən adlarda, çərşənbələrin sayında və ardıcıllığında özünü daha çox göstərir. Bayram edilən çərşənbələr bəzi bölgələrimizdə sayca dörd yox, beş və ya yeddi çərşənbədən ibarət olur. Belə olan halda aydınlaşır ki, çərşənbələrin su, od, yel, torpaq çərşənbəsi ardıcıllığının yekdilliklə qeyd edilməsi xalqın özündən çox folklorşünaslardan gəlir. Folklorşünaslar özlərinin müəyyənləşdirdiyi su, od, hava və torpaq ardıcıllığını mətbuatda, radio və televiziyada durmadan təbliğ etdikdən bir müddət sonra bu ardıcıllıq şüurlara hakim kəsilməyə, əksəriyyət tərəfindən qəbul olunmağa başlayır. Yaxşı ki, mətbuatın, radio və televiziyanın təbliğatına baxmayaraq, çərşənbələrə fərqli yanaşma xalq arasında az-çox müşahidə olunmaqdadır. Belə yanaşmaların səciyyəvi bir nümunəsinə Şərur bölgəsindən toplanmış etnoqrafik materiallar arasında rast gəlinir: "Mart dört həfdədi. İlin dört cərməsi sınır o dört həfdədə. Bu dört cərmənin birincisi suya düşür, suyun dört buzu açılır. İkinci cərmə küləyə düşür. Onda bayram ayında həfdəynən küləy əsir, yeri, göyü pak eliyir. Üçüncü cərmə torpağa düşür. Belə baxırsan, dağdan-daşdan, dərədən-filannan öz-özünə buğ çıxır. Dördüncü cərmə oda düşür ki, bu vaxt Peyğəmbərə od yandırırıx".

Aparılan araşdırmaların nəticəsində qədim yaşayış məskəni olan Naxçıvanda çərşənbələr bu ardıcıllıqla adlandırılmışdır: SU-TORPAQ-YEL-OD.

Naxçıvan və Naxçıvanətrafı bölgələrin folklor örnəkləri sırasında adları xüsusi olaraq çəkilən haxışta və gülümeylər barədə məlum təsəvvür ondan ibarətdir ki, bu örnəklər bayatılar əsasında yaranır, adətən, qızlar tərəfindən söylənir. Kitabdakı Şərurdan toplanmış yeni materiallar məsələyə bir az da aydınlıq gətirmiş olur: "Gülümeylər və haxıştalar ən çox qızlar məclisində, məsələn, xına gecələrində, toylarda, bayramlarda deyilir. Gülümey budu ki, aparıcı qız bir misra deyir. Yerdə qalan qızlar xorla "a gülüm ey, a gülüm ey" deyirlər:

*Bağda alma, nar üzər,*
*Ay gülüm ey, a gülüm ey.*
*Süfrəyə noğul düzəy,*
*Ay gülüm ey, a gülüm ey.*
*Bu gün Şərurda toydu,*
*Ay gülüm ey, a gülüm ey.*
*Oynuyax, yallı gedəy*
*Ay gülüm ey, a gülüm ey.*

Şərur bölgəsində müxtəlif mövzulu atalar sözü və məsələlərə rast gəldiklərini də qeyd edən tədqiqatçılar bildirirlər ki, bu bölgənin bayatıları folklor janrları içərisində ən işlək olanlardandır. Hər bir evin ağbirçək və ağsaqqalı bir neçə bayatını əzbərdən söyləməyi bacarır. Məlumdur ki, bayatılar da daxil olmaqla, digər folklor nümunələri də istənilən dövrün tarixi hadisələrini o dövrdə yaşamış insanların yaddaşı vasitəsilə gələcək nəsillərə ötürür.

Naxçıvanın digər bölgələrində olduğu kimi, Şərurda da müxtəlif inanclara rast gələn tədqiqatçılar özünün mifoloji əsası, qədimliyi ilə diqqəti cəlb edən bu inanclardan bəzilərinə nəzər salırlar. Həmin inancların hər birinin araşdırılması türk xalqlarının mifologiyasından xəbər verir. Kitabda bu barədə ətraflı qeydlər var. Onlardan Şərur inancları içərisində astana ilə bağlı inanclar da diqqəti cəlb edir.

Araşdırmalarda dinlə bağlı əhvalatları, dini inancları əks etdirən folklor nümunələrinə daha çox rast gəldiklərini bildirən tədqiqatçılar onu da vurğulayırlar ki, bölgənin folklor nümunələri içərisində çoxlu sayda mifoloji mətnlər, əfsanə və rəvayətlər də vardır. Bu mətnlər digər türk xalqlarında mövcud olan mətnlərlə də səsləşir. Onlar arasında oxşar mövzular çoxluq təşkil edir. Ancaq bununla belə, Naxçıvanın tarixini, qədimliyini özündə əks etdirən folklor mətnləri də az deyildir.

Şərurdan toplanan xalq ədəbiyyatı nümunələri bölgənin zəngin folkloru haqqında aydın təsəvvür yaradır. Həmin nümunələrin araşdırılması, ayrı-ayrılıqda tədqiqata cəlb olunması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan "Şərur folklor örnəkləri" kitabı Naxçıvan folklorunun özünəməxsus cəhətlərini və digər bölgələrimizlə fərqli xüsusiyyətlərini tədqiq etmək baxımından tutarlı mənbə olmaqla bərabər, dil faktlarının da üzə çıxarılması və öyrənilməsində dəyərli tədqiqat əsəridir.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Televiktorina keçirilib



Ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdləri arasında yol mədəniyyətini inkişaf etdirmək, yol hərəkəti təhlükəsizliyi ilə bağlı maarifləndirmə işlərinin təşkili məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev adına tam orta məktəbdə yol hərəkətinin təşkili mövzusunda televiktorina keçirilib.

Viktorinada Heydər Əliyev adına tam orta məktəbin III-IV sinif şagirdlərindən ibarət 4 komanda iştirak edib. Hər komandanın tərkibinə dörd şagird daxil edilib. Komanda üzvləri şəkillərdən ibarət test formalı sualları cavablandırıblar. Cavablar münsiflər heyəti tərəfindən qiymətləndirilib. Qaliblər təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

Qeyd edək ki, şagirdlərin yol hərəkətinin təhlükəsizliyinə dair biliklərinin artırılmasına xidmət edən televiktorina Naxçıvan şəhərinin digər ümumtəhsil məktəblərində də keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Dünən Şərur Rayon Mərkəzi Xəstəxanasında antibiotiklərə qarşı rezistenliyin qarşısının alınmasına həsr olunmuş səyyar konfrans keçirilib.*

## Antibiotiklərə qarşı rezistenliyin qarşısının alınmasına həsr olunmuş səyyar konfrans

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva bildirib ki, Dünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə hər il noyabr ayında Ümumdünya Antibiotiklərdən Düzgün İstifadə Həftəsi keçirilir. Məqsəd mikrob əleyhinə preparatlara davamlılıq problemi barədə dünya ictimaiyyətini məlumatlandırmaq və antibiotiklərə davamlılığın daha çox inkişaf etməsinə və yayılmasına yol verməmək üçün bu sahədə qabaqcıl təcrübəni ictimaiyyət, səhiyyə işçiləri arasında təbliğ etməkdir. Çünki antibiotiklər qlobal sağlamlıq üçün artmaqda olan ciddi təhlükədir və onunla əlaqədar tədbirlərin görülməsi zəruri hala çevrilib. Bir çox bakteriyalara davamlı yoluxmanın nəticəsində hər il dünyada 70 min, Avropada isə 33 min insan həyatını itirir. Hazırda dünyada, təxminən, 200 növ antibiotikdən istifadə olunur.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimi Elsevər Ağəliyev "Antibiotiklər: xeyri, yoxsa zərəri daha çoxdur?", Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkimi Aytən Əhmədova "Pediatriyada antibiotiklərin zərəri", Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-rezidenti Aidə Bayramova "Hamiləlik dövründə antibiotiklərdən istifadə qaydaları" mövzularında məruzələr ediblər. Məruzələr videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub.

Tədbirdə müzakirələr aparılıb, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ali təhsil ocağında seminar təşkil edilib





Mixail Lomonosov adına Moskva Dövlət Universitetinin Fəlsəfə tədrisi kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Yelena Vladimirovna Brızqalina Naxçıvan Dövlət Universitetinə mühazirə demək üçün dəvət olunub. Universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində təşkil edilən mühazirələr iki gün davam edib.

Mühazirədən əvvəl universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək bildirib ki, belə tədbirlərin keçirilməsi tələbələrin nəzəri biliklərinin daha da genişləndirilməsinə imkan yaradır.

Mühazirənin ilk günü "XXI əsr elminin, xüsusiyyətləri: fəlsəfə aspektləri"mövzusundan bəhs edilib. XXI əsrdə elmin, texnikanın inkişafı ilə bağlı elm qarşısında duran vəzifələr, yeni dövrdə elmin başlıca məqsədləri, cəmiyyətin tənzimlənməsindən danışılıb.

"Müasir universitet müəllim və tələbələrinin fəlsəfi düşüncələri" adlanan mühazirədə isə universitet təhsili xüsusiyyətləri, məqsədi, vəzifələri, cəmiyyətin müxtəlif sahələrində tətbiqi vurğulanıb.

Yelena Vladimirovna Brızqalina Naxçıvana səfəri çərçivəsində Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə də müəllim və şagirdlər ilə görüşüb.

Naxçıvan şəhəri ilə tanışlıq müddətində "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzində olan qonaq Naxçıvanın gözəlliyinə heyranlığını dilə gətirib, buranın tarixi abidələrlə zəngin qədim şəhər olduğunu qeyd edib.

**Səadət ƏLİYEVA**

## Şairlərin əsgərlərlə görüşü olub

*Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin təşkilatçılığı ilə şairlərin "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının əsgərləri ilə görüşü keçirilib.*



Tədbiri giriş sözü ilə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının zabiti, kapitan Orxan Seyidov açaraq Azərbaycan Ordusunun güclü bir orduya çevrildiyini vurğulayıb, muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlərdən danışıb.

Bildirilib ki, bu gün Azərbaycan Ordusunun hər bir əsgəri, Ali Baş Komandan əmr edərsə, hər an Vətən torpaqlarını yağı düşməndən azad etməyə hazırdır. O, 2016-cı il Aprel döyüşlərindən, əsgərlərin Şərur rayonunun Günnüt kəndindəki qəhrəmanlığından söz açaraq bütün bunların igid oğullarımızda yüksək döyüş əhval-ruhiyyəsi yaratmasından bəhs edib.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar "Poeziyamızda vətənpərvərlik hisslərinin tərənnümü" mövzusunda çıxış edərək şairlərimizin belə əsərlərindən söhbət açıb. Bildirib ki, əsgərlərdə vətənpərvərlik hisslərini gücləndirmək baxımından ədəbiyyatın, poeziyanın müstəsna rolu vardır. O, əsgərlərə həsr etdiyi şeirlərindən nümunələr səsləndirib.

Sonra şairlərdən Əbülfəz Ülvi, Ələsgər Nehrəmli, Elxan Yurdoğlu, Zeyqəm Vüqar, hərbçilərdən baş leytenant Habil Vəliyev və Aslan Quliyev Vətənə, əsgərlərə həsr edilmiş şeirlərini bədii qiraət ediblər. Əsgərlərin ifasında vətənpərvərlik mövzusunda mahnılar dinlənilib və videoçarx nümayiş olunub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

*Naxçıvan mətbəxi*

# Qışın əvəzsiz ruzisi – *qovurma*

*Naxçıvanın sərt iqlim şəraiti ilə əlaqədar deyərlər ki, burada soyuqlar noyabrda başlar, martda bitər. Buna görə də naxçıvanlılar bu soyuqlu-sazaqlı altı aya, qarşıdan gələn qışın qarlı-boranlı günlərinə qara yaz açılan vaxtdan düz qar yerə düşənədək hazırlıq görərlər. Zirzəmilər, əl damları dağlarımızın-düzlərimizin, həyət-bacalarımızın çeşid-çeşid məhsulları ilə doldurular ki, qışda ruzi bol olsun, el arasında deyildiyi kimi, əlini nəyə atsan, boşa çıxmasın.*

Martda göy gurlayıb çölün per-pencərini yeməyə halallıq verəndən camaat başlayar həm istifadə etməyə, həm də qışa tədarükə. Şıppır, ələyəz, əvəlik hörülüb qurudular, hər biri bir dərdin dərmanı olan həmərsindən tutmuş zirincə, yemişanadək, dağ nanəsindən tutmuş yarpıza, kəklikotuna, çobanyastığınadək qurudulub ayrı-ayrı yığılar. Çaşır, sobu, bolu, baldırğanın turşusu tutular, turş, şirin alça, ərik qurudular, almaheyva dərilib xüsusi anbarlara yığılar, armud, üzüm zirzəmilərin bu başından o başına çəkilən ipdən asılar, cəviz, badam, fındıq çırpılar, kisələrə doldurulub üst-üstə toplanar. Həm həyətlərin, həm də çölün-düzün bütün nemətlərinin mürəbbəsi, kompotu hazırlanar. Həftəbecər qoyular, bircə həftəyə süfrəyə gətirildimi, ardınca taxta çəlləklərdə qış turşusu tutular. Bundan sonra əriştə kəsilər, sərilər, qurudular, qovurulub, götürülər. Buğda yuyulub, kirkirədə çəkilib yarmaya çevrilər və parça torbalarda qış ruziləri yığılan yerə qoyular. Bu işlər noyabrın axırlarınadək – çox soyuq düşməmiş yekunlaşdırılar. Bundan sonra qadınlarımızın qalar bir, həm də ən böyük, çətin işi – qovurma qovurmaq.



Qovurma Naxçıvan mətbəxinə məxsus nəfis yemək növüdür. Şərur rayonundan Nazilə, Ordubaddan Lətifə, Şahbuzdan Bəyim xanımların hər üçü ilə söhbətimdə dedilər ki, Naxçıvanda bineyi-qədimdən hər bir nemət kimi, ət də qışa tədarük olunub. Ətin bu cür emal edilməsindən alınan yemək "Naxçıvan qovurması" kimi dillər əzbəridir. Bu həm qış ruzisi, həm də hazır yeməkdir. Qovurmadan qısa müddət ərzində 10-15 adda dadlı-tamlı yemək hazırlamaq olur.

Baxmayaraq ki, qışa hazırlığın ən son işi qovurma qovurmaqdır, bu işin təməli əvvəlcədən qoyulur. Ya bir-iki il əvvəl, ya da fevralın axırı, martın əvvəlləri doğulan erkək quzuların ən gümrahı "qışın qovurmalığıdır", – deyə adlandırılır



və o, xüsusi bəslənilir. Yayın sonlarınadək sürüyə ötürülən bu heyvanlar elə ki kərdi-külə pozuldu, kökəldilmək üçün həyətdə saxlanılır. Bu vaxt kəndlərə yolu düşənlər həyətlərdə 2-3 göz muncuğu toğlunun, quzunun payızın sazağından budaqda tab gətirə bilməyib ağacların altına tökülən yarpaqları, xəzəlin altında gizlənib qalmış yaşıl otları şirin-şirin yediklərini, quyruqlarını oynada-oynada ora-bura qaçdıqlarını görüblər.

Baxır ilə, il sərt gələndə noyabrın axırları, yumşaq gələndə isə dekabrın ortaları, hələ bəzən sonları bu heyvanlar kəsilir, qışlıq ruzi hazırlanır. Çox maraqlıdır ki, qovurma etmək Naxçıvanda kiçik bir mərasim şəklində həyata keçirilir. Bu mərasimə evin ailə qurub ayrı yaşayan övladları, bir də ki ən yaxın qonşular dəvət olunurlar. Nənəbabalarımız deyərlər ki, qovurma eləmək təkin işi deyil, buna kömək lazımdır. Həm də bəzən bir heyvan yox, 2-si, 3-ü birdən qovurulur. Çünki bu qış ruzisi üçün övladlar da ata ocağına üz tuturlar.

Həqiqətən də, belədir. Bunu dəfələrlə müşahidə etmişəm, bu günlərdə isə Şahbuz rayonunun Nursu kəndində olarkən bir daha özlüyümdə bunu təsdiq etdim. Biz evə çatanda iki nəfər həyətdəki yaşlı tut ağacının budağından asılan qoçu soyurdu. Kimi ocağı qurur, kimi ortalığa qazan, ləyən, məcməyi, süzgəc gətirir, kimi də bu sazaqlı havada iş görənlərə bir stəkan çay vermək üçün samovara od salırdı. Bir azdan soyulmuş heyvan elə ağacdaca hissələrə bölünüb, yerə sərilmiş örtüyün üstündəki ləyənlərə yığıldı ki, ət bir qədər soyusun. Sonra kəndlərimizdə bütün evlərdə olan ət doğramaq üçün ərik ağacı kötüyü, bir də ət baltası gətirildi və ət qovurmalıq ölçüdə doğrandı. Əti qovurmalıq doğramaq da hər adamın işi deyil, kəndlərimizdə bunu bilən adamlar var ki, onlar qovurma edilən zaman köməyə çağırılırlar.

Bu arada bir kənarda heyvanın quyruğu doğranıb qazana yığılıb ocağa qoyuldu ki, əriməkdə olsun. Ət də yuyulub böyük qazanda ocağa qoyuldu. Elə ki ət qaynara düşdü, qonşudan köməyə çağırılan ağbirçək Mədinə xala dedi ki, hə, burada əlli-ayaqlı olmalısan ki, kəf qarışmasın, yoxsa ətin rəngi tündləşər, təngov bulanıq olar. Elə buradan da maraqlı söhbət başlandı. Mədinə xala dedi ki, qovurmanın keyfiyyətli, dadlı çıxması üçün üç şərtə əməl olunmalıdır: kəf təmiz yığılmalı, ət qaynadılanda və qızardılanda vaxtında götürülməli, bir də duzu qaydasında olmalıdır. Marağımızı görən Mədinə xala ayağa qalxıb qolunu çırmaladı, dedi ki, gəlin mən göstərim siz də görün. Onun ilk sözü bu oldu ki, qız-gəlin gərək yemək hazırlayanda, xüsusilə də xəmir yoğuranda, turşu qoyanda, qovurma edəndə önlük taxa, başına ləçək çala ki, hazırladığının içərisinə nə isə düşməsin. Təmiz-tarıq olmaq lazımdır ki, gördüyün işdən də gül iyi gəlsin. Bir də nənələrimiz deyərdilər ki, qış turşusunu qoyanda, əriştə kəsəndə, yarma hazırlayanda, qovurma edəndə heç vaxt ölümdən, xəstəlikdən danışmayın. Nəhs danışanda bu nemətlər də nəhs işlərə qismət olar.



O, tez-tez ətə baxırdı ki, birdən vaxtı ötər. "Əti bir az diri götürmək lazımdır ki, qızardanda əzilməsin", – deyən Mədinə xala bir azdan hazırdır, – deyib, əti kəfkirlə süzgəclərə yığdı ki, suyu süzsün. Qazanın içərisində 10-15 tikə ət qaldı. Mən soruşanda ki, bəs bunu nə üçün götürmürsünüz? O dedi: – Qızım, qovurma edilən həyətdə həmin gün başqa yemək hazırlanmaz. Ətin suyunu göstərərək, bu, təngovdur, buna Naxçıvanın bəzi rayonlarında işgənə, cığatay, şor suyu da deyirlər. Görürsən, nə gözəl ətri var? Bilirsən niyə? Birincisi, ona görə ətirlidir ki, bizim ellərin heyvanlarını kökəldəndə əlimizə keçəni onun qarşısına tökmərik. Çölün-çəmənin güllü-çiçəkli otunun-alafının ətridir bu. İkincisi, 1-2 kiloqram əti qaynadanda belə gözəl ətir gəlmir. Burada 30-35 kiloqram ət bir yerdə qaynadığı üçün belə gözəl ətir verir. "Yaxşı, ət suyunu süzənədək biz naharımızı edək", – deyən Mədinə xala səsləndi ki, boşqabları gətirin. Qızlar məcməyilərdə içinə quru lavaş doğranmış 10-15 boşqab gətirdilər. Mədinə xala boşqabların hərəsinə bir tikə ət, 1-2 çömçə təngov qoydu, iy gedir, – deyib ən yaxın 2-3 qonşuya da pay yolladı. Yemək həyətdəki tut ağacının altında yerə açılmış böyük bir xalçanın üzərindəki süfrə başında əyləşənlərə paylandı. Süfrədə sulanmış lavaş, cızdıq (quyruq əridildikdə yerdə qalan hissə), şəhrə (heyvanın ayrı-ayrı yerlərindən götürülmüş yağlı hissələrdir. Bu da quyruqla bir yerdə əridilir, lakin cızdıqdan fərqli olaraq onun üstündə ət də olur), çaşır, baldırğan, bir də ki illik turşu deyilən kələm, pomidor, bibər, kökdən ibarət qarışıq turşu var idi. Mədinə xalanın həyat yoldaşı Elman kişi əlini çörəyə uzadandan sonra hamı yeməyə başladı. Təngovun isladıb yumşaltdığı quru çörəyin sulanmış çörək və turşu ilə yeyilməsi qədər dadlı başqa heç nə ola bilməz. Düzdür, Naxçıvan mətbəxindən hansı yeməyi yesən, bu fikirdə olursan, lakin qovurmanın belə mərasim şəklində hazırlanması və təngovun kollektiv şəkildə yeyilməsi mətbəximizin bu nümunəsini daha dadlı edir.

Yeməkdən sonra süfrəyə ətirli samovar çayı gətirildi. Kişilərin işləri bitdiyinə görə kimi nərd, kimi də şahmat oynamağa başladı, qadınları isə Mədinə xala səslədi ki, ay qızlar, ocaq başına. Ocağın üstünə böyük bir teşt qoyuldu, quyruq yağı oraya boşaldıldı, yağ dağ olanda ət əlavə edildi, yaxşıca qızardıldı. O, aradabir ətdən götürüb boşqabın içərisinə qoyur, bıçaqla bölüb içinə baxır və deyirdi ki, yaxşı qızardılmasa, qovurma tez xarab olar. Sonra emallı vedrə gətirildi, birinci ətlər yığıldı, sonra üzərinə yağı əlavə olundu. Mədinə xala dedi ki, yağ əti basmalıdır, yəni qabdakı ətin üzərindən 1-2 santimetr yuxarıda qalmalıdır. Əsl qovurma odur ki, öz yağı özünü bassın. Sonra vedrənin qapağını qoydu, ağız şirinliyi ilə yeyin, xeyir işlərə qismət olsun, – deyib, kəndirlə onun ağzını bağladı. Yenə də marağımızı görüb dedi ki, bəli, qovurma qış ruzisidir. Həm 15-20 gün qalmalıdır ki, bir özünü tutsun, həm də indidən ağzını qoydunsa bunun üstünə, bəs qışın şaxtasında nə yeyərsən? Qovurma qabının ağzı dekabr ayının sonlarında açılmalıdır. İndi yeməyə gör nələr var, amma qışda olmayacaq. Qışda hər biriki qaşıq götürüb sıyıq əriştəyə, yarma aşına, şep qovurmasına vurmalısan, yumurtanı onunla salmalısan ki, uşağın-böyüyün dizinə qüvvət, gözünə nur olsun. Qəflətən qonaq gələndə bir qovurma bozbaşı bişirib süfrəyə qoyaraq onu mətbəximizin zəngin nemətləri ilə tanış etməlisən. Bir də ki bu yerlərdə o qadına qadın deyirlər ki, yazın gözü açılana 1-2 bişirimlik qovurma saxlaya bilə ki, qazayağını, cacığı, çirişi, şepi onunla qovurub süfrəyə verə.

Mədinə xala maraqlı bir məsələyə də toxundu: "Bəzən qan təzyiqi olan adamlar və ya qoyun ətini sevməyənlər qovurmanı dana ətindən də edirlər. Amma ata-babadan qovurma qoyun ətindən hazırlanır. Dana ətindən edəndə onu mağazalarda satılan yağlarla və ya alınma quyruqla qovururlar. Bu qoyun qovurmasının dadını – ləzzətini vermir".

Artıq Naxçıvan şəhərində fəaliyyət göstərən "Müasir məkan" ət və ət məhsulları emalı müəssisəsində 500 qramlıq qablarda Naxçıvan qovurması da istehsal olunur. Bu məhsulun şəhərimizin ən böyük marketləri, "Naxçıvan məhsulları" satış mağazası ilə yanaşı, Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalarında da satışı təşkil olunub. Elə bu yaxınlarda keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalındakı pavilyonların çoxunda da Naxçıvan mətbəxinin bu ləziz nümunəsi ilə rastlaşmaq olurdu. Festivalın iştirakçısı olan qonaqlar isə ilk dəfə gördükləri qovurma haqqında soruşur, təsərrüfat sahiblərinin cavablarını maraqla dinləyirdilər.

*Bu gün diyarımıza gələn qonaqlar üçün açılan süfrələrə düzülən bir-birindən dadlı nemətlərdən biri də Naxçıvan qovurması olur. Onu dadanlar isə bu nadir, necə hazırlanır kimi sualları bir-birinin ardınca yağdırırlar, bu nemətin dadına heyran qaldıqlarını bildirirlər. Ta ki süfrələrimiz açıq, nemətlərimiz bol, bir-birindən gözəl nemətlərimizə heyran qonaqlarımız çox olsun.*

**Mətanət MƏMMƏDOVA**

*Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə keçirilən növbəti seminar-müşavirədə qış aylarında avtobusların saz vəziyyətdə xəttə buraxılmasının təminatı, yol hərəkəti qaydalarına əməl edilməsi, nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi məsələləri müzakirə edilib.*

## Sürücülər üçün növbəti seminar-müşavirə



Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin şöbə müdiri Elxan Novruzov, Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşı Ayaz İsmayılov və Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinin rəisi İlkin Məmmədov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, qış mövsümündə avtomobil nəqliyyatı sahəsində xidmətin intensivliyinin təmin olunması, yaranmış çətinliklərin aradan qaldırılması üçün ötən müddət ərzində mütəmadi olaraq tədbirlər həyata keçirilib, ucqar dağ və sərhəd kəndlərinə işləyən avtobusların sürücülərinə lazımi köməklik göstərilib. Eyni zamanda şəhərdaxili nəqliyyatda sürücülərin yol hərəkəti qaydalarına əməl etmələri, ayıq-sayıq fəaliyyət göstərmələri və avtomobilləri təmiz saxlamaları üçün mütəmadi olaraq yoxlamalar həyata keçirilib, yaranmış problemlər aradan qaldırılıb.

Qeyd olunub ki, qışın soyuq, qarlı-şaxtalı günlərində sərnişinlərin mənzilbaşına rahat və təhlükəsiz şəkildə çatdırılmalarını təmin etmək üçün avtobusların qızdırıcı sistemlərinin yoxlanılması, təkərlərin mövsümə uyğun dəyişdirilməsi, ehtiyat üçün zəncirlərin götürülməsi diqqətdə saxlanılıb, bu məqsədlə müvafiq tapşırıqlar verilib, sürücülərlə maarifləndirici söhbətlər aparılıb.

Vurğulanıb ki, Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsində marşrut avtobusların, mikroavtobusların və taksilərin mövsüm dəyişikliyi səbəbi ilə fəaliyyəti zamanı yarana biləcək problemlərin vaxtında həll edilməsi üçün mexanik və çilingərlərdən ibarət təmir briqadası yaradılıb, idarənin təmir sexləri mal-materialla təmin olunaraq hazır vəziyyətə gətirilib.

**Nail ƏSGƏROV**

## Artilleriyaçılarımız birincilik uğrunda yarışıblar



*Təlimlərdə hədəfləri ilk atəşlə məhv edən Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları bu dəfə birincilik uğrunda yarışıblar.*

Azərbaycan Ordusu üzrə keçirilən "Ən yaxşı reaktiv artilleriya divizionu" adı uğrunda yarışda Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları da iştirak ediblər.

Plana uyğun olaraq keçirilən yarışda düşmənin taktiki və əməliyyat dərinliyində hava kəşfiyyatı apara bilən vasitələrlə təchiz edilmiş reaktiv artilleriya divizionu bütün mərhələlər üzrə tapşırıqları uğurla yerinə yetirib.

**Nəriman NƏCƏFOV**

### İtmişdir

Naxçıvan şəhər Qaraçuq kənd sakini Seyidov Mirəli Mirkamal oğlunun adına olan 783B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Cəfərov Cavid Fəxrəddin oğlunun adına olan 16223 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 863